# Azərbaycan Respublikasının «İstiqlal» ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının «İstiqlal» ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 6 dekabr 1993-cü il***

***№ 754***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 dekabr 1993-cü il, № 245).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (1993-cü il, № 23-24, maddə 677).***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 722-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə.***

*Azərbaycan Respublikasının*
*1993-cü il 6 dekabr tarixli,*
*754 saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının «İstiqlal» ordeninin Statutu

1. Azərbaycan Respublikasının «İstiqlal» ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakılara görə verilir:

- Azərbaycan Respublikasında milli-azadlıq hərəkatında müstəsna xidmətlərinə görə;
- Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə görə;
- Azərbaycan Respublikasının milli-dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə.

2. «İstiqlal» ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

*Azərbaycan Respublikasının*
*1998-ci il 6 fevral tarixli,*
*429-IQD nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# *«İstiqlal» ordeninin təsviri*

*«İstiqlal» ordeni bir-birinin üzərinə qoyulmuş, biri digərinə nisbətən ox ətrafında dönmüş və ikiüzlü hamar şüaları olan iki gümüş səkkizguşəli ulduzdan ibarətdir.*

*Üstdəki ulduzun ortasında mavi mina ilə örtülmüş girdə lövhə yerləşir. Bu lövhənin üzərində qanadları açılmış quş və qanadların arasında — yuxarıda səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan yuxarıda qanadlar arasında çevrə boyunca «İstiqlal» sözü yazılmışdır. Quşun, ulduzun təsviri və yazı qabarıqdır, qızıl suyuna çəkilmişdir.*

*Arxa tərəfi hamar səthlidir, ortasında ordenin seriyası və nömrəsi həkk olunmuşdur.*

*Təltif dəstinə aşağıdakılar daxildir:*

- *boyundan asmaq üçün 37 mm enində, 6 qızılı xətli, göy çalarlı lenti olan, 50 mm qabarit ölçülü orden;*
- *paltara bərkidilmək üçün elementi olan, aşağıya doğru bucaq altında kəsilən, 6 maili qızılı zolaqlı, göy çalarlı, 37 mm x 50 mm ölçüdə lentə halqa və ilgək vasitəsilə birləşdirilən 35 mm qabarit ölçülü orden. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü gümüşü təbəqə bərkidilir;*
- *paltara bərkidilmək üçün elementi olan, göy çalarlı, ölçüsü 37 mm x 10 mm olan 2 ədəd qəlib. Qəlibin birinin üzərinə 17 mm x 6 mm ölçüdə sarı rəngli metal lövhə bərkidilmişdir. Metal lövhənin üzərində qoşa sarı xətli tünd qırmızı rəngli dairəvi element mövcuddur.*



**“Azərbaycan Respublikasının “İstiqlal” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 754 nömrəli Qanununda dəyişikliklər edilməsi barədə**
**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının “İstiqlal” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 754 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 677; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 141) ilə təsdiq edilmiş “İstiqlal” ordeninin təsviri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. Üçüncü hissədə “nömrəsi” sözündən əvvəl “seriyası və” sözləri əlavə edilsin.
2. Dördüncü hissədə:
2.1. ikinci abzasda “27 mm” sözləri “37 mm” sözləri ilə əvəz edilsin, “göy çalarlı” sözlərindən əvvəl “6 qızılı xətli,” sözləri əlavə edilsin;
2.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:
“paltara bərkidilmək üçün elementi olan, aşağıya doğru bucaq altında kəsilən, 6 maili qızılı zolaqlı, göy çalarlı, 37 mm x 50 mm ölçüdə lentə halqa və ilgək vasitəsilə birləşdirilən 35 mm qabarit ölçülü orden. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü gümüşü təbəqə bərkidilir;”;
2.3. dördüncü abzasda “üzərində alov simvolu təsvir edilmiş, ölçüsü 27 mm x 9 mm olan” sözləri “ölçüsü 37 mm x 10 mm olan 2 ədəd” sözləri ilə əvəz edilsin və abzasa aşağıdakı məzmunda cümlələr əlavə edilsin:
“Qəlibin birinin üzərinə 17 mm x 6 mm ölçüdə sarı rəngli metal lövhə bərkidilmişdir. Metal lövhənin üzərində qoşa sarı xətli tünd qırmızı rəngli dairəvi element mövcuddur.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**

“İSTİQLAL” ordeni

